UOT 94

ELÇİN MƏHƏMMƏDLİ
AMEA.A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun kiçik elmi işçisi,
Azərbaycan Universitetinin doktorantı
mhmmdli95@inbox.ru

ROMA İMPERİYASININ QAFQAZ SİYASƏTİNDƏ ALANLAR MƏSƏLƏSİ (I-II ƏSRLƏR)

DOI: https://doi.org/10.36719/2708-065X/111/12-16

I əsrdən etibarən müxtəlif mənbələrdə adı tez-tez çəkilən alan tayfaları Qafqaz ərazisinə hücumlar etmiş və talanlar törətmişdilər. 72–74 və 135-ci illərdə baş vermiş iki böyük yürüş xüsusilə genişmiqyaslı idi. Cənubi Qafqazda siyasi sabitliyi pozan bu hücumlar Roma imperiyasının diqqət mərkəzinə çevrildi. Xarici siyasətin əsas istiqaməti bölgəni daimi nəzarət altında saxlamaq və burada hakim olan yerli hökmdarları imperiyanın vassalına çevirmək idi.

Açar sözlər: Xəzər qapıları, Arrian, Kappadokiya, alban çarları.

Giriş. Yeni eranın I əsrinin sonlarından IV əsrə qədər olan zaman kəsiyində izlərinə rast gəldiyimiz alanlar, Azov dənizindən başlayaraq, Aşağı Don və İdil hövzəsi daxil olmaqla, Qafqaz dağlarına qədər uzanan çöllərdə hökmranlıq etmişlər. Bölgədə güclü hakimiyyət quran alanlar haqqındakı önəmli məlumatların böyük bir hissəsi, IV əsrdə yaşamış hərbçi və tarixçi Ammian Marsellinə aiddir. Qonşu xalqlar üçün təhlükə mənbəyi hesab edilən alan tayfalarından bəzən digər dövlətlər siyasi mənafeyi baxımından istifadə etmiş, ölkələrində mərkəzi hakimiyyətə qarşı çıxışları yatırmaq üçün onları dəvət etmişlər. Alanların Qafqaza dağıdıcı hücumlarının ilki 72-74-cü illəri, ikinci böyük dalğası isə 135-ci ili əhatə etmiş, yürüşlərin əsas qayəsi qənimət əldə etmək olmuşdur. Romanın siyasi elitası da bu tip hücumların dövlətin şərqdəki nüfuz dairəsinə zərbə vurduğunun fərqində idi. Mövzunun əhatə etdiyi xronoloji çərçivə yeni eranın I-II əsrlərini əhatə edir. Səbəbi isə alan tayfalarının məhz bu dövrdə Qafqaz ərazisində məskunlaşması, region dövlətlərinə fəal hücumlar etməsidir. Məqalə yazılarkən, empirik-nəzəri və müqayisəli-təhlil metodlarından istifadə olunmuşdur. Məqalənin yazılma məqsədi dövrünün ən qüdrətli imperiyası hesab olunan Romanın xarici siyasətini, köçəri alan tayfaları baxımından araşdırmaqdır.

Roma imperiyasının xarici siyasətində alanlar problemi. I-II əsrlərdə Romanın Cənubi Qafqazda apardığı siyasi kursu 3 ayrı istiqamət üzrə bölmək olar:

1. Bunlardan ilki e.ə.27-y.e.14-cü illərini özündə əhatə edir. Roma imperiyası özünün iqtisadi ehtiyacları baxımından Qafqazda olan dövlətlər və bölgə hakimləri ilə münasibətlərin qurulması və inkişaf etdirilməsinə yönələn siyasi xətt irəli sürmüşdür.

2. İmperator Neronun da içində olduğu ikinci mərhələ isə 14-64-cü illəri əhatə edir. Bu dövrdə Roma özünün şərq siyasətində Qafqazın önəminin fərqinə vararaq bölgəyə nəzarəti ələ almaq üçün hərbi və siyasi həmlələr etmişdir.

3. 64-138-ci illəri əhatə edən növbəti mərhələdə isə Roma imperiyası xarici siyasətində Qara dənizdən başlayaraq Xəzər dənizinə qədər öz təsirini yaymaq, burada özünün vassalı olacaq yerli hakimlər formalaşdırmaq və sərhəd ərazilərə əlavə qoşun hissələri göndərmək siyasətini həyata keçirmişdir [4, 464-465].

Eradan əvvəl 27-ci ildə Romada Oktavian Avqust imperator elan olunduqdan sonra regionlarda yeritdiyi xarici siyasətdə də müxtəlif manevrlər etmişdir. E.ə. I əsrə aid edilən Ankira kitabəsində Avqustun adından qeyd olunur ki, imperiya İberiya və Albaniya ilə dostluq münasibətləri qurmaqda maraqlıdır. Strabon köçəri tayfaların yürüşünü şərh edərkən bildirir ki, İberiya və alban çarları şəxsən özü şimal qapılarını açır, bəzən öz dövlətlərində olan daxili məsələlərlə bağlı da bu tayfaları cəlb edirdilər [13, 48].

İmperator Neron hakimiyyətə gəldikdən sonra müxtəlif siyasi manevrlər edərək, şərq siyasətini qaydasına salmağa qərar verdi. Parfiyaya qarşı müharibəyə qərar verərək, Germaniya hakimi Qney

Korbulonu qoşun komandanı vəzifəsinə təyin etdi. Korbulon bu vəzifəyə gəldikdən sonra Qafqazda silahlı qüvvələrin sayını artırmaqla bağlı tapşırıqlar verdi. Mənbələrdə onun Qafqazdan Anadoluya giriş qapısı olan və Albaniyanın sərhədləri içində yer alan Dərbənd keçidinə kəşfiyyat qrupu göndərdiyi, özünün də şəxsən bu səfərdə iştirak etməsi qeyd edilir [7, 123-125]. Kornelli Tasit Neronun Xəzər dənizinin qərb hissəsindəki sarmatlara qarşı ordu göndərməsini qeyd etmişdir [25, 57]. Bosvort Romanın Qafqazı nəzarət altında saxlamaq istəməsinin əsas səbəbini alan tayfalarına qarşı gördüyü tədbir olduğunu vurğulayır [16, 217-225]. Bu onun şərq siyasətinin reallaşdırılması yolunda növbəti addımı idi.

Hakimiyyətdə olan Roma imperatoru Vespasian 75-ci ildə alan tayfalarının hücumuna mane olmaq məqsədilə Dəryal keçidinə nəzarəti əlində saxlayan İberiya çarlığının sərhədləri daxilində Tiflis şəhərinə yaxın olan ərazilərdə qala divarlarını möhkəmləndirdi. Bununla kifayətlənməyən Roma imperiyası İberiyanın başlıca sərhəd qəsəbəsi hesab olunan Armaziştsixeyə (indiki Mtsxeta) böyük bir silahlı dəstə göndərdi [20, 575]. I-II əsrlərdə Qafqazın cənub-qərb hissəsində önəmli qalalarından biri Fasis olmuşdur. Strateji mövqeyi baxımından əhəmiyyətli zonada yerləşən qala, 400 nəfərə yaxın əsgər tərəfindən mühafizə edilirdi. Xüsusilə, şimaldan gələn alanların və barbarların hücumlarının dəf edilməsində vacib rola sahib idi [21, 1170-1228]. Arrianın qeydlərindən aydın olur ki, II əsrdə Cənubi Qafqazdakı digər strateji qarnizon Suxumi qalasında yerləşirdi. Suxumi ilə Fasis qalası arasında təxminən 100 mil məsafə vardı [26, 479-481].

Roma imperatoru Trayanın (98-117) hakimiyyəti boyunca şərq siyasətində 2 aparıcı siyasi istiqamət xətti irəli sürümüşdü. Bunlardan ilki, Qafqazdan Qara dəniz bölgəsinə doğru yayılan alanları nəzarət altında saxlamaq, ikincisi isə Romanın şərqdəki ən böyük düşməni olan Parfiyanı tamamilə hakimiyyət altına almaq idi [21, 1170-1228]. Trayan şərqə doğru təşkil etdiyi yürüş nəticəsində 114-cü ildə Armeniya çarı Partamasiri özünə tabe etdi və buranı yenidən Roma əyalətinə çevirdi. İmperator Elegiyaya (*indiki Ərzurum ərazisi*) çatdığında burada Cənubi Qafqazın vassal hökmdarlarını qəbul etdi. İberiya və alban hökmdarları da vassallar sırasında idi [18, 377]. İberiya və Albaniyaya Trayanın önəm verməsinin ən böyük səbəbi, Mesopotamiyaya edəcəyi böyük yürüş vaxtı alan təhlükəsinə qarşı Qafqazın təhlükəsizliyini təmin altına almaq idi.

Şərqdə Romanın ən təhlükəli rəqibi olan Parfiya ilə imperator Adrian 128-ci ildə 50 il müddətinə sülh müqaviləsi imzaladı. Bundan sonra şərqdəki siyasi fəaliyyətini əsasən, Qara dəniz regionu və Qafqaza yönəltdi. Çünki, bu zonada güclənən alanlar, Roma üçün ciddi maneə hesab olunurdu. Qafqaz regionunda əsas təhlükə alanların İberiya ilə birləşərək Romaya qarşı birgə hərəkət etməsi ola bilərdi [22, 197-199]. Mövcud vəziyyəti nəzərə alaraq, Roma imperiyası Kappadokiya hakimi Arrianı, Pont və Qafqaz ərazisini tədqiq etmək üçün bu ərazilərə göndərdi [15, 132-136]. Arrianın Qara dəniz sahillərində qurulan Romanın sərhəd qalalarında apardığı kəşfiyyat işləri həm regionun təhlükəsizliyi, həm də ticarət yollarının mühafizəsi baxımından əhəmiyyətli rol oynayırdı. Çünki, İberiya başda olmaqla, bəzi xalqlar Roma hakimiyyətindən üz döndərmişdi. Arrianın kəşfiyyat işlərindən sonra bölgədəki Roma əsgərlərinə mütəmadi olaraq hərbi təlimlər keçirilirdi [2, 87-91].

İmperator Adrianın dövründən başlayaraq Roma süvari ordusunun döyüş taktikası alanlar nümunəsində qurulmuşdur. III-IV yüzillikdə Roma ordusunun piyada döyüş korpusları silah və quruluş baxımından tamamilə sarmatlarda olduğu kimi idi [3, 25-26].

İqrar Əliyev və Qardaşxan Aslanov alanların Qafqaza yürüşləri, maddi-mədəniyyət nümunələrinin mövcudluğu haqqında məlumatlar vermişlər. Müəlliflər antik dövrə aid edilən katakomba qəbirlərinin alanların tarixi ilə bağlı olduğunu bildirmişdir [9, 74-77]. Alan-sarmat dəfnetmə adətinin spesifik xüsusiyyətlərindən hesab edilən meyidin bükülmüş vəziyyətdə dəfn olunması Mingəçevirdən aşkar olunan katakombalara xas xüsusiyyətlərdəndir [1, 42].

Alanlar və onların Qafqaza hücumları. Ammian Marsellin alan tayfalarının olduqca canlı təsvirini verərək, onları Xəzər dənizinin şərq hissəsinin keçmiş sakinləri massagetlərlə eyniləşdirmişdir. Yazıçı alanlardan, "*qədim Massaget xalqı olan halani*" formasında bəhs edir [6, 389]. Xəzər dənizi ətrafında məskunlaşan alanlar, bir neçə qəbiləni öz ətrafında birləşdirdilər Ammianın düşüncələrindən yola çıxan Vernadski, bu dövrdə Hindistan sərhədlərində Yuecilərin varlığına diqqət çəkərək, köçəri həyat tərzi sürən alanlarla Yuecilər arasında soy bağlılığının olduğu qənaətinə gəldi [26, 89]. Marsellin Don çayı hövzəsindən başlayaraq, Qanq çayına qədər olan ərazidə alanların yaşadığını və bu bölgədə yaşayan tayfa birliklərinin "alan*"* adı altında ümumiləşdirildiyini bildirmişdir. O, qeyd edir ki, "*alan-*

lar ətlə bol qidalanaraq, yük arabalarında yaşayırdılar" [6, 391]. Mirfatih Zəkiyev yazır ki: "*Miladdan öncəki son əsrdə alanlar Xəzərin şimalı, Don və Qafqazda yarımköçəri həyat sürən sarmatlardan ayrılaraq, yeni eranın ilk yüzilliyindən Azov dənizi ətrafı və Qafqazda məskunlaşdılar. Bu dövrdə alanların iqtisadi həyatında heyvandarlıq əhəmiyyətli mövqeyə malik idi."* [8, 189-190]. Kornelli Tasit və İosif Fiavi kimi müəlliflərə istinad edən Kadir Natho isə, 35-36-cı illərdə baş vermiş İber-Pont münaqişəsində bəhs etdikləri "Sarmat" və "İskit" qəbilələrinin alan tayfalarının sonralar əsasını təşkil edəcək "aorslar" və "siraklar" olduqlarını istisna etmir [5, 343-347].

Alanlar, tarix səhnəsində yer aldıqları müddət ərzində qərb və şərq istiqamətində geniş miqyaslı axınlar həyata keçirmişlər. Bizə məlum olan ilk böyük alan axını, 72-74-cü illərində baş vermişdir. Fəth yerinə qənimət əldə etmək məqsədi güdən bu yürüşü şərh edən İosif Flaviyə görə, (37-100-cü illər) alan tayfaları Midiya ölkəsinə (Atropatena) hücum etmək məqsədi ilə Parfiya hökmdarı I Vologezlə razılıq əldə etdi. Parfiya çarının razılığı ilə Atropatenaya daxil olan alan tayfaları, ölkəni yağmalamağa başlamış və böyük dağıntılara səbəb olmuşlar. Atropatena hökmdarı Pakor müqavimət göstərmədən ölkədən qaçmağa məcbur oldu. Alanlar Atropatenadan sonra yürüşə davam edərək, Armeniyaya hücum etmişlər. Bu dövrdə Armeniya hökmdarı olan Trdat da, alan hücumlarının qarşısında duruş gətirə bilməmişdir [19, 220-221]. İosifin verdiyi məlumatlardan, alanların yürüşə hansı istiqamətdən başlaması aydın olmur. Lakin, yazıçının bildirdiyi "*İsgəndərin bağladığı dəmir qapılar"* ifadəsindən müəyyən etmək mümkündür ki, səfər Elburz dağ silsiləsindəki Xəzər qapılarından başlamışdır. Belə ki, Makedoniyalı İsgəndər də, özünün şərqə yürüşü zamanı Xəzər dənizinin şərq sahillərindən keçmişdi.

II əsrin əvvəllərində Şimali Qafqaz bölgəsindəki hakimiyyətini gücləndirən alanlar, Dəryal və Dərbənd keçidlərindən cənuba doğru hərəkət edərək, Atropatena və Albaniyanı yenidən istila etmişdilər [17, 10-11]. 135-ci ildə İberiya hökmdarı II Farasman alan tayfalarını yenidən Qafqaza dəvət etdi. Georgi Melikişvilinin sözlərinə görə, İberiya hökmdarları öz ordusunda vuruşmaq üçün alanları hərbi struktura daxil edirdi və onların çoxu sonradan imtiyazlı şəxslərə çevrilirdi [10, 355-356]. Lakin, alanlarla İberiya arasında yaradılan ittifaq bu dəfə Romaya deyil, qonşu Albaniya və digər xalqlara qarşı idi [23, 371; 16, 217-225]. Çünki İberiya və Albaniya arasında imperator Klavdinin (41-54) vaxtında başlayan düşmənçilik münasibətləri hələ də qalmaqda idi. Alanların 135-ci ildə başlayan ikinci böyük basqını zamanı Albaniya və Atropatena ərazisi talan olundu. Yürüşlərinə davam edən alanlar daha sonra Armeniyanı da qarət etmişlər [18, 453; 11, 47]. Bu hücumlar zamanı alanların Kappadokiyaya qədər irəlilədikləri məlumdur [14, 49; 12, 35]. Alanların Cənubi Qafqaz və Anadolu istiqamətində davam edən təzyiqi, Roma imperiyasının Kappadokiya hakimi olaraq vəzifədə yer alan, tarixi əsərləri ilə tanınan Flavi Arrianın səyləri nəticəsində qırılmışdır. Arrian alan tayfalarına qarşı uğurlu müharibələr apararaq, onları istila etdikləri coğrafiyadan çıxardı [24, 118]. III əsrin sonlarından etibarən alan tayfalarının bir hissəsi Roma ordusunda xidmət etdi, digər qismi isə hunlara və ostqotlara qatılaraq mövcudluqlarını qorudular [17, 11].

Nəticə. Cənubi Qafqazdakı Roma siyasətinin alanlar baxımından öyrənilməsində bir neçə nəticəyə gəlmək və onları aşağıdakı formada ümumiləşdirmək olar:

- alan hücumlarının məqsədi ərazi fəth etmək deyil, qarət və talanlar həyata keçirmək olmuşdur;
- Romanın alanlarla bağlı siyasətində Qafqazda fəal şəkildə tədbirlər görülməsi imperator Neronun vaxtında başlanılıb;
- İberiya-alan ittifaqının qurulması imperiyanın Qafqaz siyasətinin həyata keçirilməsinə əngəl törədən faktorlardan idi;
- Roma imperiyası köçəri alan tayfalarının hücumlarının qarşısını almaq üçün Dəryal və Dərbənd keçidinin möhkəmləndirilməsinə çalışmış, Cənubi Qafqazda yerləşən qalaların təhlükəsizliyinə diqqət ayırmışdır.

ƏDƏBİYYAT

1. Hacıyeva D., Qafqaz Albaniyası ilə sarmat-alanların qarşılıqlı əlaqələrinə dair, "Tarix və onun problemləri" jurnalı №1, Bakı, 2010, s.41-45.
2. Arrianus, Periplus Ponti Euxini, Arrianusun Karadeniz seyaheti, (Çeviren ve yorumlayan Murat Arslan), İstanbul:Odin Yayıncılık, 2005, 204 s.

3. Badakoğlu U., Antik kaynaklar ve güncel çalışmalar ışığında sarmatlar,Yüksek Lisans Tezi, Bilecik, 2018, 165 s.
4. Emir O., MS I. ve II. Yüzyıllarda Roma'nın Doğu Karadeniz ve Güney Batı Kafkasya'daki Askeri Varlığı, *Tarih Boyunca Anadolu - Gürcistan İlişkileri* Sempozyumu, Ankara, 2020, s.449-465.
5. Kadir Natho, Kafkasyada ve Kafkasya Dışındaki Çerkesler, (Çev. Ömer A. Kumrel), Ankara: Kafdav Yayınları, 2009, 441 s.
6. Marcellinus A., Roma Tarihi, (Çev.Samet Özgüler), İstanbul, Historia Kitap Yayınevi, 2020, 659s.
7. Suetonius, On iki Caesar'ın Yaşamı, (Çev. Fafo Telatar – Gül Özaktürk), Ankara: Türk Tarih Kurumu Yayınları, 2008, 494 s.
8. Zekiyev M., Türklerin ve Tatarların Kökeni, İstanbul, Selenge Yayınları, 2007, 512 s.
9. Алиев И.Г.,Асланов Г.М. К вопросу о проникновении на территорию Азербайджана племен сармато-массагето-аланского круга в первые века нашего летоисчисления//МАДИСО. Т.Ш. Орджоникидзе, 1975. с.72-88.
10. Меликишвили Г.А., К истории древней Грузии / Ин-т истории им. И. А. Джавахишвили. - Тбилиси: Изд-во Акад. наук Груз. ССР, 1959, 507 с.
11. Мровели Л. Жизнь картлийских царей / Пер., предисл. и коммент. Г.В. Цулая. Москва: Наука, 1979. 103 с.
12. Перевалов С.М., Тактические трактаты Флавия Арриана: Тактическое искусство; Диспозиция против аланов, Текст, перевод, комментарий. М., 2010, 390 с.
13. Страбон. География в 17 книгах. (Пер. А.Стратановского). М.: Наука, 1964, 941 с.
14. Alemany, A., Sources on the Alans: A Critical Compilation, Leiden, Köln, Brill, 2000, 464 p.
15. Birley A.R., Hadrian to the Antonines, The High Empire A.D. 70-192,CAH XI,Oxford and New York: Cambridge University Press/ Cambridge Histories Online, 2000, 194 p.
16. Bosworth, A. B., "Arrian and Alani", Massachusetts: Harvard University Press**,** 1977, 255 p.
17. Brzezinski R., Mielczarek M., "The Sarmatians 600 BC-AD 450", Oxford, Bloomsbury Publishing, 2002, 48 p.
18. Cassius Dio, (Rhomaika), Roman History with an English translation by E. Carry I-IX, London, Cambridge, Massachusetts: Harvard University Press (Loeb), 1914, 596 p.
19. Josephus, *The Jewish War, Volume III: Books 4-7,* (Translated by Henry ST. John Thackeray), Loeb Classical Library, MA: Harvard University Press, Cambridge, 1961, 687 p.
20. Magie, D.,Roman Rule in Asia Minor to the end of Third Century after Christ. I-II, Princeton: Princeton University Press, 1950, 746 p.
21. Mitford B.T., Cappadocia and Armenia Minor: Historical setting of the Limes, Ed. H. Temporini, *Aufstieg und Niedergang der römischen Welt* II, 7/2. Berlin/New York. ANRW, 1980, 1228 p.
22. Mitford B.T., East of Asia Minor :Rome s hidden frontier, Vol. I, Oxford and New York : Oxford University Press, 2018,700 p.
23. Mommsen, T., A History of Roman Under the Emperors, Based on the Lecture Notes of Sebastian and Paul Hensel, 1882–6, German Edition by Barbara and Alexander Demandt, English Translation by Clare Krojzl, (Ed.), with the Addition of A New Chapter, by Thomas Wiedemann, London and New York: Routledge, 2005, 642 p.
24. Rostovtzeff, M. İ., İranians & Greeks in South Russia, The Calerandon Press, Oxford, 1922, 496 p.
25. Tacitus, *The Annals Books*: *13-16*, translated by John Jackson, MA: Harvard University Press, Cambridge,edition, 1937, 432 p.
26. Vernadsky, G., Ancient Russia, Yale University Press, New Haven, 1943, 517 p.

ЭЛЬЧИН МОХАММЕДЛИ

Младший научный сотрудник Института истории и этнологии имени А.А.Бакиханова НАНА, докторант Азербайджанского Университета

АЛАНСКИЙ ВОПРОС В КАВКАЗСКОЙ ПОЛИТИКЕ РИМСКОЙ ИМПЕРИИ

С I века племена аланов, имя которых часто упоминается в источниках, совершали набеги и грабежи на Кавказ. Особенно масштабными были два великих похода (72-74 и 135 годы).

Нападения, вызвавшие политическую нестабильность на Южном Кавказе, оказались в центре внимания Римской империи. Приоритетным направлением внешней политики было удержание региона под постоянным контролем, превращение правивших здесь местных правителей в вассалов империи.

Ключевые слова: Каспийские ворота, Арриан, Каппадокия, Албанские цари.

ELCHIN MAHAMMADLY
Junior Research Fellow of the Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS, PhD student of the Azerbaijan University

THE ALAN ISSUE IN THE CAUCASIAN POLICY OF THE ROMAN EMPIRE

From the 1st century, the alans tribes, whose name is often mentioned in different sources, raided and plundered the Caucasus. Two great campaigns (72-74 and 135 years) were especially large-scale. The attacks, which caused political instability in the South Caucasus, became the focus of the Roman Empire. The priority direction of foreign policy was to keep the region under constant control, turning the local rulers who ruled here into vassals of the empire.

Keywords: Caspian gates, Arrian, Cappadocia, Albanian tsars.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d.Əkbər Bədəlov, t.e.d. Qabil Əliyev.